UOT 37.

**Kəmalə Rafiq qızı Quliyeva**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Ümumi Pedaqogika kafedrasının baş müəllimi,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/ 0009-0001-3386-7503*
*E-mail: kamala.328@mail.ru*
*https://doi.org/10.69682/arti.2025.92(5).62-65*

# TƏLİM PROSESİNDƏ MÜSTƏQİL İŞLƏRİN TƏŞKİLİ İSTİQAMƏTLƏRİ

**Kamala Rafig Guliyeva**
*senior lecturer of the department of General pedagogy at Azerbaijan State Pedagogical University, doctor of philosophy in pedagogy*

# DIRECTIONS OF ORGANIZATION OF INDEPENDENT WORKS IN THE EDUCATIONAL PROCESS

**Камала Рафиг гызы Гулиева**
*старший преподаватель кафедры Общей педагогики Азербайджанского Государственного Педагогического университета,*
*доктор философии по педагогике*

# НАПРАВЛЕНИЯ ОРГАНИЗАЦИИ САМОСТОЯТЕЛЬНЫХ РАБОТ В УЧЕБНОМ ПРОЦЕССЕ

**Xülasə.** Elmi məqalə məktəblərdə müstəqil işlərin təşkili istiqamətləri ilə bağlıdır.

Bu istiqamətlər təlimə prosesinə, sinifdənxaric və məktəbdənkənar işlərə, evə verilən tapşırıqlara yönəldilmişdir. Eyni zamanda burada məktəbdə laboratoriya müstəqil işləri: frontal üsul və praktikumların həyata keçirilməsinin üstünlükləri göstərilmişdir.

***Açar sözlər:*** *müstəqil iş, çalışmalar, sinifdənxaric, şagirdlər, mətin, plan, laboratoriya*

***Abstract.*** The scientific article is related to the directions of organization of independent work in schools. These directions are focused on the learning process, extracurricular and extracurricular work, homework. At the same time, the advantages of conducting laboratory independent work at school: frontal method and practical work are shown here.

***Keywords:*** *independent work, work, extracurricular, students, text, plan, laboratory*

**Аннотация.** Научная статья посвящена направлениям организации самостоятельной работы в школах. Данные направления ориентированы на процесс обучения, внеклассную, внеурочную и домашнюю работу. При этом показаны преимущества проведения лабораторной самостоятельной работы в школе: фронтальный метод и практическая работа.

***Ключевые слова:*** *самостоятельная работа, упражнения, внеклассная, учащиеся, текст, план, лаборатория*

Bu gün məktəblərdə təhsilə yanaşma dəyişmişdir. Artıq təhsildə məqsəd yalnız şagirdlərə bilik vermək deyil, eyni zamanda onlarda müəyyən bacarıq və vərdişləri formalaşdırmaqdır. Şagirdlərin dərsdə və dərsdənkənar vaxtlarda müstəqil iş bacarığının aşılanması, bu cür təlim işlərinin düzgün təşkil edilməsi böyük əhəmiyyətə malikdir. Çünki təlim zamanı şagirdlərin müstəqil işləməsi təlimin müvəffəqiyyətinə təsir edən əsas amillərdəndir. Ş.X. Nəbiyeva belə hesab edir ki, "Şagirdlərdə intellektin inkişaf etdirilməsi prosesi onların qabiliyyətləri ilə bağlıdır. Müəllim hər bir şagirdin hansı qabiliyyətə malik olduğunu nəzərə almalıdır" [1, s.83]. Unutmaq olmaz ki, tədris – idrak fəaliyyətinin ən səmərəli üsullarından biri məhz mək-

təblilərin sərbəst, müstəqil işidir. Şagirdlərin müstəqil işlərinin məktəblərdə düzgün təşkili, şagirdlərin idrak və fəallıqlarını gücləndirər, müstəqil çalışmaq vərdişlərini daha da dərinləşdirər. A. Zeynalov və S. Kərimovaya görə " məktəblilərin mənəvi, əxlaqi, estetik, bədii tərbiyəsində, müstəqil həyata, ictimai fəaliyyətə hazırlanmasında onlara müstəqil iş vərdişləri aşılamağın böyük təlim və tərbiyəvi əhəmiyyəti vardır"[2, s.38].Təlimdə şagirdlərin müstəqillik qabiliyyətini inkişaf etdirməkdən ötrü müəllim birinci növbədə "müstəqil iş" anlayışının mənasını düzgün dərk edərək bu anlayışı təşkil edən məzmun barədə bilik və bacarığa sahib olmalıdır.

Fransada hələ XX əsrin əvvəllərində bu məsələ dövlət səviyyəsində diqqəti cəlb edən problemlərdən biri idi. Alfred Bine 1904-cü ildə ibtidai sinif şagirdlərinin uğur qazanmasının sirlərini öyrənməyə başladı. Bu tapşırığı ona Fransanın Xalq Naziri həvalə etmişdi. Lakin bu hadisədən 80 il sonra təhsil araşdırıcıları müəyyən etdilər ki, şagirdin inkişafı üçün ilk növbədə onun qabiliyyəti üzə çıxarılmalıdır.

Harvard Universitetinin psixoloqu Hovard Qardner təxminən 1883-cü ildə yazmış olduğu "Əqlin hüdudları" adlı əsərində çoxşaxəli əqli qabiliyyətlər nəzəriyyəsini kəşf etdi (3). Qardnerin başlanğıc olaraq psixologiya, bir müddət sonra isə insan zəkası sahəsində təşkil etdiyi araşdırmalar ilkin olaraq 6 intellekt növünü üzə çıxardı. Bu dövrdə isə artıq 9 intellekt tipi vardır. Alimin çox istiqamətli intellektlərinə verbal-linqvistik intellekti, məntiqi-riyazi intellekti, məkan-vizual intellekti, bədən-kinestetik intellekti, musiqi-ritmli intellekti, şəxslərarası intellekti, fərddaxili intellekti, naturalist intellekti və ekzistensial intellekti göstərə bilərik.

Müstəqil iş, müəllimin bilavasitə iştirakı olmadan yerinə yetirilən, bunun üçün xüsusi olaraq ayrılmış bir vaxtda, şagirdlər məqsədlərinə çatmaq üçün şüurlu şəkildə səy göstərərək və bir formada ifadə edərək digər zehni və ya fiziki (və ya hər ikisi birlikdə) hərəkətlərin nəticəsidir.

Mükəmməl dərsliklər insanın əqlində qorunub saxlanılmalı olan başlıcaları ayırd etmək bacarığı formalaşdırır. Təbii ki, mükəmməl dərslik subyektə öyrənmə metodlarından, elmi idrakın forma və metodlarından müstəqil istifadə imkanları yaradır. Dərslik üzərində işləməyin xüsusi tərzlərini-sadə və mürəkkəb plan tutmağı, konspekt düzəltməyi, tezis tərtib etməyi, lazımi şeyləri qeyd etməyi şagirdə öyrətmək üçün müxtəlif tapşırıqlardan istifadə olunması önəmlidir

Müstəqil işin növlərindən biri olan dərslik üzərində işin əsasını mətn üzərində iş hesab olunur. Mətnlə işin özünəməxsus priyomları vardır. Buraya aşağıdakılar daxildir: planın tərtib edilməsi, plan üzrə nağıletmə, mətnin izahlı oxunuşu, mətnin seçmə oxunuşu.

Plan tərtib etməyin əhəmiyyəti ondan ibarətdir ki, şagird biliyini planlaşdırır, sistemə salır. Mətnin izahlı oxunuşu-mətn üzərində işin bu növünün özünəməxsus əhəmiyyəti vardır. Belə ki, mətn hissə-hissə oxunur və elmi şəkildə qanunauyğunluqları açıb göstərməklə aydın olmayan söz və anlayışlar izah olunur. Mətnin seçmə oxunuşu mövzuya hazırlaşarkən mətndə lazım olan hissə müəllim tərəfindən müəyyən olunur. Dərs zamanı həmin hissə oxunur və sual verməklə şagirdlərin nəticə çıxarmalarına şərait yaradılır.

Müstəqil ev işi tədris proqramlarının tələblərini, həmçinin məktəblilərin maraq və tələbatlarını, onların inkişaf səviyyəsini nəzərə almaqla qurulur.

Sinifdənxaric müstəqil iş şagirdlərin müstəqilliyinə, şüurluluğuna, fəallığına istinad edir. Düzgün təşkil edilmiş sinifdənxaric fəaliyyət şagirdlərin inkişafında sinifdəki fəal işdən heç də az əhəmiyyət kəsb etmir.

Əgər şagird ev tapşırıqlarını həll edərkən, çətinliklə rastlaşarsa onda müəllimə müraciət etməlidir, məsləhət almalıdır. Ev tapşırıqlarının icrası üçün yaradılan şəraitin rahat və əlverişli olması şagirdin təhsil uğurlarının yüksəlməsinə səbəb olur. Tədris prosesində şagirdlərin çalışmalar üzərində müstəqil işlərini təşkil etmək məqsədilə hər birində 3-4 nəfər olmaqla qruplar yaradılmalı və hər qrupda yüksək, orta və kafi oxuyan şagirdlərin iştirakı təmin edilməlidir. Ola bilsin ki, eyni vaxtda hər üç qrupa bir variantda çalışmalar verilsin. Amma çox vaxt müəllim ayrı-ayrılıqda hər qrupa variantlar təklif edir. Qruplara təqdim olunan çalışmaların ağırlıq dərəcəsi də qrupdakı şagirdlərin bilik səviyyəsinə uyğun olmalıdır.

Baxaq görək bu çalışmalar bankının yaradılmasının hansı üstünlükləri vardır. Bu üstünlüklərin səciyyəvi cəhətləri nədən ibarətdir. A. Mehrabov, Ə. Abbasov, Z. Zeynalov, R.

Həsənov belə hesab edirlər ki, "çalışmalar bankının yaradılmasının üstünlükləri vardır. Bu üstünlüklərə müəllimin seçim qarşısında qalmaması, vaxt itkisinin minimuma enməsi, tapşırıqların icrasının yoxlanması və şagirdlərin biliyinin dəyərləndirilməsində çevikliyin yaranmasıdır" [5, s.221].

Çalışmaların ən mühüm və ən vacib formalarından biri dərsdə misal və məsələ həllidir. Müəllim məsələnin həllinə bütün sinfi cəlb etməlidir, o, bu işi müxtəlif yollarla həyata keçirə bilər. Bu yollardan biri bütün sinfin məsələni yazı taxtasına çağırılan şagirdlə birlikdə həll etməsidir.

Hadisələrin kəmiyyət öyrənilməsində laboratoriya işləri daha böyük əhəmiyyətə malikdir. Şagirdləri ölçmələr aparmaq və axtarışları tapmaq üsulları ilə yalnız laboratoriya ilə bağlı müstəqil işlərdə tanış etmək olar. Orta məktəbdə laboratoriya müstəqil işləri iki üsulla aparılır: frontal üsul və praktikumlar.

Frontal laboratoriya müstəqil işləri isə üç mərhələdə aparılır: müəllimin giriş müşahidəsi, işin şagirdlər tərəfindən icrası, müəllimin yekun mərhələsi. Giriş müşahidəsi zamanı müəllim ilkin olaraq laboratoriya işinin mövzusunu elan edir, onun məqsədini müəyyənləşdirir. Daha sonra şagirdlərin qoyulan iş ilə əlaqədar keçmiş nəzəri biliklərini təkrar etdirir, işin aparılması planı və proqramla şagirdləri tanış edir. Proqramın yerinə yetirildiyi zaman hansı əməliyyatların icra ediləcəyi qabaqcadan izah olunur. Həmçinin proqramın yerinə yetirilməsi zamanı hansı parametrlərin qiymətlərinin daxil edilməsi qeyd edilir. Aparılan laboratoriya işinə əsasən şagirdlərin nəzəri biliklərini dərinləşdirməkdən ötrü yoxlama sualları qoyulur. Müəllimin giriş müsahibəsi 10-12 dəqiqədən artıq vaxt aparmamalıdır.

Frontal laboratoriya işlərində şagirdlərə paylaşmaq üçün yazılı təlimat tətbiq etmək məcburi deyildir. Lakin buna baxmayaraq, şagirdləri yazılı təlimatdan istifadəyə alışdırmaq məqsədəuyğun hesab edilir. Bundan ötrü aşağıdakı forma məsləhət görülür:

1. İşin adı.
2. İşin məqsədi.
3. İşin aparılması üçün lazım olan əmrlər və operatorlar.
4. İşin mahiyyətinə aid məntiqi ardıcıllıqla düzülmüş suallar.
5. İşin gedişi üçün tərtib edilmiş proqram hissələri.
6. Laboratoriya işindən alınan nəticələrin qiymətləndirilməsinə dair göstəriş.
7. Aparılmış laboratoriya işinə əsasən şagirdlərin nəzəri biliklərini dərinləşdirmək üçün yoxlama sualları.

Orta məktəbdə laboratoriya eksperiment aparmağın ikinci üsulu praktikumdur. İnformatikanın tədrisində təlimin müvəffəqiyyətlə həyata keçirilməsinin təmin etmək məqsədi ilə yuxarı siniflərin proqramına praktik işlərin daxil edilməsi xüsusi əhəmiyyət kəsb edir. Ə.Q. Pələngov və N. A. Rzazadə yazır ki, "laboratoriya işlərini frontal üsulla aparılması prosesində, onun müsbət cəhətlərinə baxmayaraq, şagirdlərə yalnız ilk eksperimental bacarıq və vərdişlər aşılanır, bu isə orta məktəbi bitirənlər üçün azdır"[6, s.88].

Praktikumların hazırlanması məqsədilə aktual məzmunlu informasiyaların və başqa fənləri əhatə edən layihələrin verilməsi mühümdür. Əsasən, bu tipli tapşırıqlar bir neçə tədris prosesi üçün nəzərdə saxlanılır.

Həm laboratoriya işləri, həm də praktik işlər yerinə yetirilmə üsullarına, mərhələlərinə və səciyyəvi xüsusiyyətlərinə görə bir-birindən fərqlənirlər. Məsələn, laboratoriya işləri öz səciyyəvi xüsusiyyətlərinə görə 2 yerə ayrılır: keyfiyyət xarakterli laboratoriya işləri və kəmiyyət xarakterli laboratoriya işləri.

Ə.Q. Pələngov və M. Abdullayeva keyfiyyət və kəmiyyət xarakterli laboratoriya işlərini belə bir bir şəkildə xarakterizə edirlər: "Keyfiyyət xarakterli laboratoriya işlərində şagirdlər obyekt və hadisənin gedişini müşahidə edir və əsas əlamətlərinə diqqət yetirərək nəticə çıxarırlar. Kəmiyyət xarakterli laboratoriya işlərində şagirdlər hər hansı məsələnin həlli proqramını kompüterdə reallaşdırırlar"[7, s.94].

**Nəticə.** Müstəqil işləri həyata keçirərkən bəzi təkliflərimizi irəli sürmək istərdik. Belə ki, müstəqil işləri həyata keçirərkən fəal təlimin şəxsiyyətyönlülük və şagirdyönlülük prinsipi nəzərə alınmalıdır. Lakin yadda saxlamaq vacibdir ki, müstəqil işlərin tipini seçərkən, mövzuları aydınlaşdırarkən yerli şəraiti, məktəbin tələbatını, şagirdlərin marağını, yaş və bilik dərəcəsini və bir sıra başqa məsələləri mütləq nəzərdə saxlamaq gərəkdir. Bundan başqa, şagirdlərin müvəffəqiyyət qazanması məqsədilə müəllim hər şeydən öncə, könüllülük prinsipinə, onların

istək və arzularına, hazırki bilik dərəcəsinə diqqət yetirməlidir. İş dəftərində, dərslikdəki məlumatları almaq, təhlil və tətbiq etmək, dəyərləndirmək üçün praktik müstəqil işlər verilir. Əsasən aşağıdakı tipdən olan praktiki müstəqil işlərə üstün yer ayrılması məqsədəmüvafiq hesab edilir: çalışma və tapşırıqlar, istiqamətləndirici suallar, evdə olan müstəqil işlər, ev tapşırıqları.

**Problemin aktuallığı.** Müəllimin qarşısında duran əsas vəzifələrdən biri şagirdlərin müstəqil fəaliyyətinin təşkili və idarə edilməsi üçün şəraitin yaradılması olduğundan, məktəblərdə istər təlim prosesində, istərsə də sinifdənxaric və məktəbdənkənar tədbirlərdə, ev şəraitində belə şagirdlərin müstəqil təhsil fəaliyyətinin təşkilinin əsas mərhələlərini müəyyən etmək zərurəti yaranır. Bu təşkilatın texnoloji əsasları dərsin müvafiq mərhələlərində müəllim və şagirdin fəaliyyətini əks etdirir.

**Problemin elmi yeniliyi.** Araşdırma nəticəsində müstəqil işlərin mahiyyətinə pedaqoji ədəbiyyatlarda yanaşmalarda fərqli fikirlər ortaya çıxarılmışdır ki, bu da problemin araşdırılmasına müxtəlif baxışlardan yanaşmanı tələb edir. Eyni zamanda müstəqil işlər zamanı nəzərə alınacaq tələblər ortaya qoyulmuş, yaradıcı müstəqil işlərin üstünlükləri göstərilmişdir. Təlimdə həyata keçirilən müstəqil işlərin tipləri və təşkili istiqamətləri araşdırılmışdır.

**Problemin praktik əhəmiyyəti**. Elmi məqalədə təklif olunan ideyalardan, müddəalardan, nəticələrdən ümumtəhsil məktəblərində şagirdlərdə müstəqil iş yazmaq bacarıqlarının inkişaf etdirilməsi istiqamətində metodiki vəsaitlərin, monoqrafiyaların hazırlanmasında, elmi aspektə daxil olan ayrı-ayrı simpozium və təşkilatlarda olan məruzə və çıxışların tərtib olunmasında istifadə edilmə imkanlarını artırır.

**Ədəbiyyat:**

1. Nəbiyeva, Ş. Şagird intellektinin inkişaf etdirilməsində informasiya-kommunikasiya texnologiyalarının rolu //-Bakı: ADPU, Təhsildə İKT, -2010. №1, -s.83-98.
2. Zeynalov, A ”Təlimdə geri qalan şagirdlərlə müstəqil işlərin təşkili yolları / A. Zeynalov, S. Kərimova. -Bakı: ADPU, -1997. -38 s.
3. Şagirdlərin bacarıqlarını müəyyən edən Hovard Qardner nəzəriyyəsi – 9 intellekt növü. https:// news. milli. az/interest / 737128.html
4. Paşayev, Ə. Pedaqogika( yeni kurs)/ Ə. Paşayev, F. Rüstəmov. -Bakı: Elm və təhsil, -2002. -416 s.
5. Pedaqoji texnologiyalar /A. Mehrabov, Ə. Abbasov, Z. Zeynalov[və b.] -Bakı: Mütərcim, -2006, -372 s.
6. Pələngov, Ə. İnformatikanın təlimində praktikumların aparılması metodikası / Ə. Pələngov, N. Rzazadə Q. Pələngov[və b.] -Bakı: // Təhsildə İKT, elmi-metodik jurnal, -Bakı: ADPU, -2013. № 3, -s.88-92.
7. Pələngov, Ə. Orta məktəbdə informatikanın tədrisi metodikası. I hissə. /M. Abdullayev, Ə. Pələngov, M. Abdullayeva. -Bakı: Elm və təhsil, -2015. -188 s.

**Redaksiyaya daxil olub:** 22.09.2025